*UOT 37.1*

# MƏKTƏBLƏRDƏ EKOLOJİ TƏRBİYƏNİN ROLU VƏ ƏHƏMİYYƏTİ

**Pərizad Zərdabi qızı Rzazadə**
*Bakı Qızlar Universitetinin magistrantı*
**ORCİD:** 0009-0008-7980-0575
**E-mail:** perizad.rzazade26@gmail.com

***Açar sözlər:*** *ekologiya, tərbiyə, ekoloji düşüncə, təbiət, ətraf mühit*
***Ключевые слова:*** *экология, образование, экологическое мышление, природа, окружающая среда*
***Key words:*** *ecology, education, ecological thinking, nature, environment*

"Ekologiya" yunan sözü olub, eko (*oiko* ev, yurd, məkan, *loqos*-təlim, elm) deməkdir. "Ekologiya" canlı və cansız təbiətin qarşılıqlı münasibətini öyrənən bir elm kimi, həmçinin bioloji elmlər sisteminə daxil olmaqla, flora və faunanın daxili əlaqə və münasibətlərini və insanlarla təbiət arasında olan qarşılıqlı təsirin qanunauyğunluqlarını öyrənir. Təbiəti insansız insanı təbiətsiz təsəvvür etmək mümkün deyil. Bəşəriyyətin müasir yaşayışını ekologiyasız təsəvvür etmək mümkün deyildir. Yazmağı, oxumağı, saymağı bilmədən yaşamaq nə qədər çətindirsə, ekologiyanın əsaslarını öyrənmədən də yaşamaq bir o qədər çətinləşir. Təbiət insanlar üçün dərketmə və estetik münasibətlərin obyektidir. Təbiət hadisələri estetik cəhətdən insana zövq verir. Həmçinin elmi dünyagörüşün formalaşmasına hərtərəfli təsir göstərir. Ekoloji cəhətdən savadlı insan dərk etməlidir ki, təbiət də onun özü kimi canlıdır. Təbiət güclüdür, ancaq bu güc tükənməz deyil.

Bu baxımdan təhsil ocaqlarında ekoloji təhsilin gücləndirilməsinin tərəfdarları hesab edirlər ki, uşağa kiçik yaşlarından təbiətə qayğı ilə yanaşmanı aşılamaqla biz onun şəxsiyyətinin formalaşmasına ciddi təkan vermiş oluruq. Başqa sözlə, yeni nəsildə vətəndaş şüurunun formalaşdırılmasının əsas istiqamətlərindən biri də məhz ekoloji təhsil və tərbiyə olmalıdır. Bu yolla gəncləri doğma torpağı və təbiəti sevməyi, ətraf mühitə biganəlikdən qaçmamağı aşılaya bilərik. Ekoloji problemlərə laqeyd yanaşmaq insan övladının sağlam mühitdən təcridi deməkdir. Bunun qarşısını almaq üçün təhsil müəssisələrində ekoloji tərbiyə verilməlidir. Ekoloji tərbiyə planlı, mütəşəkkil şəkildə həyata keçirilərsə, uşaqlara kiçik yaşlarından ekoloji tərbiyə verilərsə, onlar gələcəkdə ekoloji problemlərin yaranmasının qarşısını alacaqlar. Bu gün təhsil müəssələrində xüsusilə də məktəblərdə ekoloji tərbiyənin verilməsi əsas məsələlərdən biri hesab olunur. Bir növ ekoloji tərbiyə vərdiş halına gətirilməlidir. Bu vərdiş uşaqlarda təbiətə qarşı insani duyğular formalaşdıracaqdır. Ekoloji tərbiyədə o zaman müvəffəqiyyət əldə etmək olar ki, məktəblilərdə ekoloji dünyagörüş formalaşdırılsın. Ekoloji dünyagörüşü dedikdə, gənc nəslin təbiətə, onun sərvətlərinə məhəbbət, qayğı göstərmək, qorumaq, çoxaldılması istiqamətində fəaliyyət göstərmək, ekoloji şüura və əqidəyə malik olmaq nəzərdə tutulur. Ekoloji tərbiyənin əsasında ibtidai siniflərdən başlayaraq uşaqları təbiətə məftunluq, gözəlliyini dərk etdirməklə yanaşı, ətraf mühiti - torpağı, suyu, atmosferi, flora və faunanı mühafizə etmək istiqamətində formalaşdırmaq durur. Ekoloji tərbiyə prosesində məktəblilər doğma torpaq, doğma yurd, vətən haqqında, onun təbiəti haqqında geniş məlumat alır, onun qorunmasında üzərlərinə çoxsaylı

vəzifələrin düşdüyünü dərk edirlər. Məktəblilərin ekoloji tərbiyəsində ekoloji tarazlığın mahiyyəti haqqında məlumatın verilməsi vacib məsələlərdən biridir. Şagirdlərin dünyagörüşünün əsas tərkib hissəsi olan ekoloji düşüncə ekoloji tərbiyə prosesində formalaşır.

Ekoloji tərbiyənin bir sıra vəzifələri vardır ki, bunlar aşağıdakılardır:

1. Böyüyən nəsildə ekoloji şüuru formalaşdırmaq;
2. Uşaq və gənclərdə doğma təbiətə, ətraf mühitə məhəbbət və qayğılı münasibət, onun korlanmasına qarşı barışmazlıq hissləri aşılamaq;
3. Təbiəti mühafizə üzrə zəruri bacarıq və vərdişlər formalaşdırmaq, gənc nəsli fəal ekoloji fəaliyyətə hazırlamaq.

Tərbiyə məqsədyönlü həyata keçirildiyinə görə ekoloji tərbiyədə məqsədyönlü təlim prosesində həyata keçilir. Yəni, şagirdlər müxtəlif fənləri öyrənməklə ekoloji biliklərə yiyələnirlər. Xüsusilə də ekoloji bilik və mədəniyyətin formalaşmasında biologiya, coğrafiya, fizika, kimya dərslərinin mühüm əhəmiyyəti vardır. Bununla yanaşı, I-IV siniflərdə ana dili, riyaziyyat, həyat bilgisi, musiqi, təsviri incəsənət kimi fənlər tədris olunur. Bu fənlərə diqqət yetirsək ekoloji tərbiyəvi fikirlərə rast gələ bilərik. Məsələn, ana dili fənninin tədrisi zamanı diyarşünaslıq aspektindən yanaşaraq ölkə ərazisində olan çaylar, göllər, dağlar, təbii sərvətlər və s barədə məlumatlar, şeirlər əks olunur. Bu tip məlumatlar şagirdlərin biliyini artırmaqla bərabər ölkəmiz haqqında daha geniş məlumata sahib olmasını təmin edir. S.Vurğunun “El bilir ki sən mənimsən” şeirinə nəzər yetirsək bunun şahidi ola bilərik. Respublikanın 4 bir yanı şeirdə əks olunmuşdur. Bu tip şeirləri əzbərləyən zaman təhsilalanda qürur hissi, vətən sevgisi daha da artır.

*Bir tərəfin bəhri-Xəzər,*
*Yaşılbaş sonalar gəzər.*
*Xəyalım dolaşar gəzər,*
*Gah Muğanı, gah Eldarı.*
*Mənzil uzaq, ömür yarı!*

Təsviri incəsənət fənninin tədrisinin ekoloji tərbiyənin formalaşmasında rolu danılmazdır. Müşahidə etmək, hadisələri qavramaq, ətraf aləmin gözəlliyi duyaraq təbiətə olan sevgiləri daha da artır. Ekologiyaya pis təsir edən amillər vardır. Müəllim təhsilalana eyni zamanda ətraf mühitdə olan mənfi məqamları qələmə almağı tapşırarsa, təhsilalan birbaşa müşahidəyə yönələcəkdir. Təbii ki, bu hal onu təsirləndirib, düşünməyə sövq edəcəkdir. Çirkli ətraf mühit, zavodların tüstüsünün əksi, küçələrə tullanmış tullantılar ekoloji tarazlığın pozur, nəticə isə təhsilalan bunu anlayacaq ekoloji tarazlığın qorunması üçün addımlar atacaqdır. Həyat bilgisi fənni canlı, cansız obyektlərin təhsilalanın beynində inikasını yaradır. Birbaşa ətraf aləmdə baş verən hadisələri müşahidə edərək dərketməyə çalışırlar sonda isə nəticə çıxarırlar. Ekoloji tərbiyə işində müxtəlif yollardan, forma və metodlardan istifadə edilir. Ekoloji tərbiyə hələ kiçik yaşlardan, ailə və uşaq bağçasından başlanmalıdır. Şagirdlər ilk növbədə uşaq vaxtında ailədə tərbiyə alırlar. Ona görə də, erkən yaşlardan uşaqlarda təbiət hadisələrinə düzgün baxışlar yaratmaq, onlara təbiəti, canlıları sevdirmək, uşaq qəlbində xeyirxahlıq hissləri oyatmaq lazımdır. Məsələn, əsasən valideynlərin övladlarına söylədikləri küçədə zibil atmamaq, heyvan öldürməmək, bitki yığmamaqla və s. kimi nümunələr ekoloji tərbiyənin ilk pillələridir. Deməli, təbiətə qayğılı münasibətdə valideynlərin şəxsi nümunəsi əvəzedilməzdir. Kiçik yaşlardan buna diqqət

yetirilməzsə, uşaqda təbiətə, heyvan və quşlara qarşı laqeydlik, hətta qəddarlıq, rəhmsizlik hissləri baş qaldıra bilər. Təbiətə qarşı qəddarlıq təbiət gözəlliklərinə laqeydlikdən, ətraf aləmə qeyri-həssas münasibətdən, bir sözlə, uşaq qəlbində xeyirxahlıq hisslərinin kütləşməsindən başlanır. Ailədə və uşaq bağçasında aparılan ekoloji tərbiyə işləri məktəbdə daha da inkişaf etdirilir və sistemli şəkil alır. Təlim prosesi ekoloji tərbiyənin çox mühüm yoludur. Ayrı-ayrı fənlərin tədrisində ekoloji təhsil və tərbiyə üçün böyük imkanlar vardır. İbtidai siniflərdə şagirdlər təbiətşünaslıq və ətraf aləmlə tanışlıq dərslərində təbiət və onun mühafizəsi haqqında ilkin təsəvvürlərə yiyələnir, onlarda təbiətə məhəbbət, onu qorumağın vacibliyi fikri aşılanır. Orta və yuxarı siniflərdə ekoloji təhsil və tərbiyə işləri genişləndirilir. Kimya dərslərində torpağın münbitliyini saxlamaq üçün kimyəvi gübrələrdən istifadə edilməsi, sənaye və məişət tullantılarının emalı, ekoloji cəhətdən təmiz ərzaq məhsullarının istehsalı və s. barədə təsəvvürlər aşılanır. Bunlar isə şagirdlərin ekoloji təfəkkürünün inkişafına güclü təsir göstərir. Ekologiya və təbiəti mühafizə sahəsində digər fənlərdə - biologiya, zoologiya, botanika, coğrafiya dərslərində daha ətraflı biliklər verilir və onların tətbiqi aspektləri nəzərdən keçirilir. Uşaqlarda ekoloji tərbiyənin formalaşmasında estetik elmlərin xüsusi rolu var. Ekoloji tərbiyə xalqın fikirlərində də özünü göstərir. Ulu əcdadlarımızdan bizə günümüzə gəlib çatmış atalar sözləri, məsəllər, bayatılar və s. kimi qiymətli nümunələrə nəzər salsaq görərik ki, burada ekoloji şərait insan düşüncəsi ilə müqayisə edilir. Məsələn, "Təmiz hava girməyən evə həkim girər", "Bağa baxarsan bağ olar, baxmazsan dağ olar" və s. kimi. Bütün bunlar insanları təmizliyə, səliqəli olmağa, ətraf mühiti qorumağa yönəldən qiymətli fikirlərdir. Bunlarla yanaşı ulu öndər Heydər Əliyevin təbiətlə bağlı öz qiymətli fikirlərində də ətraf mühiti, təbiəti, vətəni sevmək və ona qayğı ilə yanaşmaq lazım olduğunu bildirmişdir. "*Mən dəfələrlə demişəm ,bir də deyirəm, kim hansı bir sağlam ağacı kəsirsə hesab edirəm ki, o, mənim qolumu, barmaqlarımı kəsir. İnsan qurmalıdır, yaratmalıdır... Mən istəyirəm ki, hamınız təbiəti qoruyanlar olasınız. Təbiətə zərər vuranlar, təbiəti çirkləndirənlər, korlayanlar cəmiyyətimizin, hamımızın düşmənidir*". (H. Əliyev)

"*Təbiətin ölkəmizə bəxş etdiyi zəngin sərvətlərə xüsusi qayğı ilə yanaşmaq, belə misilsiz xəzinələri bəşəriyyətin gələcəyi naminə qorumaq üzərimizə düşən başlıca vəzifələrdəndir*". (H. Əliyev)

Ekoloji tərbiyə sahəsində dərslərdə aparılan iş sinifdənxaric və məktəbdənkənar tədbirlər yolu ilə daha da dərinləşdirilir. Pedaqoqlar məktəbdəki və fənn kabinetindəki bitkilərə qulluq etməyi, şagirdlərin ekologiya ilə bağlı aksiyalarda iştirakını təşkil etməlidir.

Yerli şəraitdən asılı olaraq təbiəti mühafizə işinin müxtəlif formalarından istifadə olunur: məktəb meşəçiliyi, gənc təbiətçi dərnək və klubları, məktəb qoruqları, meyvə bağları, ekologiya üzrə olimpiada və viktorinalar, məktəb ekologiya cəmiyyəti, ekologiya ayları, ekologiya reydləri və s. belə maraqlı formalardandır. Məktəblərdə və yaşayış yerlərində yaşıllıq iməciliklərinin keçirilməsi, mavi və yaşıl keşikçi dəstələrinin yaradılması, ilk çiçək bayramlarının, meşə və quş günlərinin, təbiət dostları və gənc bağbanların müsabiqələrinin təşkili kimi tədbirləri məktəblərdə ənənə şəklinə salmaq lazımdır. Şagirdlərdə ekoloji tərbiyənin inkişafında uşaq ədəbiyyatı, televiziya və radionun da rolu böyükdür. Televiziya və radiolarda vaxtaşırı verilən verilişlər mühüm əhəmiyyətə malikdir. Ekoloji mədəniyyət təkcə təbiətə müəyyən baxışlar, onun sisteminin işlənib hazırlanması demək deyildir. O, həm də konkret insan fəaliyyəti ilə əlaqədardır.

Cəmiyyətdə ekoloji mədəniyyət səviyyəsinin yüksəlməsi gələcək nəslin ekoloji tərbiyəsin-

dən və  ekoloji biliklərə necə yiyələnməsindən asılıdır. Bu isə bütün insanlarda bəşəri mədəniyyəti təcəssüm etdirən mədəniyyətin sivil inkişaf forması və təhsil mühitinin formalaşmasını, eyni zamanda, bütün xalqlardan mədəni inkişafın əsas istiqaməti kimi ekoloji təhsilin fasiləsiz inkişaf strategiyasını, konsepsiyasını, proqramını hazırlamağı və həyata keçirməyini tələb edir. Ekoloji təhsilin ardıcıl və sistemli olması üçün bu prosesə şəxsiyyətin formalaşmasının ilk anlarından, uşaqlıqdan başlamaq lazımdır ki, onun da təməli məhz ailədə, məktəbəqədər tərbiyə ocaqlarında, ibtidai siniflərdə qoyulmalı, orta, orta ixtisas və ali məktəblərdə isə tamamilə formalaşmalıdır. Məktəblilərdə ekoloji düşüncənin formalaşdırılmasında onların təbiəti qorumaq xarakterli faydalı əməkdə iştirak etmələri mühüm rol oynayır. Şagirdlər yaşıllaşdırma işlərində, meşə zolaqlarının salınmasında, təbiətlə bağlı sərgilərdə iştirak etmələri ekoloji tərbiyənin inkişafında mühüm rol oynayır. Bildiyimiz kimi ətraf mühitdə tez-tez müxtəlif dəyişikliklər baş verir. Müəllimlər isə bu dəyişikliklərin insana necə təsir etdiyi barədə diskussiya keçirə bilərlər. Bu zaman şagirdlərdən ekoloji pozulmaların qarşısını almaq üçün keçirilən tədbirlər barədə fikirlər almaq vacibdir. Ekoloji tərbiyə dövrümüzdə ən aktual tərbiyə növlərindən biri sayılır.

**Problemin aktuallığı.** Məktəbdə təlim və tərbiyə proseslərinin təşkilində şagirdlərdə ekoloji tərbiyə, ekoloji düşüncə və ekoloji dünyagörüşün formalaşdırmaq və inkişaf etdirilməsidir. Erkən yaşlardan başlayaraq şagirdlərə ətraf mühitin qorunması, təbiətin dəyəri və dayanıqlı inkişaf prinsipləri öyrədilməlidir. Məktəblər bu sahədə mühüm rol oynayır, çünki bu yaşda formalaşan ekoloji bilik və davranışlar fərdlərin gələcək həyat tərzinə və dünyaya yanaşmasına təsir edir.

**Problemin elmi yeniliyi.** Ənənəvi ekoloji tədris metodlarından fərqli olaraq, inteqrativ yanaşmalar, təbiətlə praktik əlaqə qurmağa yönəlmiş dərslər və layihə əsaslı öyrənmə ekoloji şüurun formalaşdırılmasında daha effektivdir. Elmi yenilik, təhsildə ekoloji tərbiyənin daha səmərəli yollarını tapmaq və şagirdlərdə təbiətə olan münasibəti aktiv şəkildə dəyişdirmək üçün yeni texnologiyaların və multidissiplinar yanaşmaların tətbiqindədir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən Pedaqoqlar, ali məktəb müəllimləri, tələbələr və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Abbasov A.N. Pedoqogika. Dərs vəasiti. Bakı: Mütərcim. 2010.
2. İbrahimov F., Hüseynzadə R. Pedaqogika. 2 cilddə. I cild. Bakı: Mütərcim. 2012.
3. Qasımova L.N., Mahmudova R.M.. Pedaqogika. Dərslik. Bakı: Çaşıoğlu, 2012.
4. https://muallim.edu.az/news.php?id=7790
5. https://www.muallim.edu.az/news.php?id=17421
6. https://kayzen.az/blog/pedaqoq/2338/estetik,-fiziki,-h%C3%BCquq-v%C9%99-ekoloji-t%C9%99rbiy%C9%99.html

**П.З. Рзазаде**

**Меняющиеся парадигмы высшего образования**
**Резюме**

В данной статье подробно рассматриваются роль и значение экологического воспитания в школе, а также пути формирования экологического воспитания учащихся. Используя современные методы и методы, можно формировать и развивать экологическое мышление, экологическое воспитание и экологическое мировоззрение у школьников.

**P.Z.Rzazada**

**Changing paradigms of higher education**
**Summary**

This article examines in detail the role and importance of environmental education in school, as well as the ways of forming environmental education for students. Using modern methods and methods, it is possible to form and develop ecological thinking, ecological education and ecological outlook in students.

**Redaksiyaya daxil olub:** 07.10.2024